

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 14 dekabr 2024-cü il №94 (2905) https://mod.gov.az Qiymәti 30 qəpik


## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər



***Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatından 21 il ötür.***

AZƏRTAC xəbər verir ki, dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoyub.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloqalim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini ehtiramla anıblar, məzarı üzərinə gül dəstələri qoyublar.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üstünə gül dəstələri düzülüb.

* * *

Azərbaycanın çağdaş tarixində silinməz iz qoymuş Ulu Öndər Heydər Əliyev dahi şəxsiyyətlərdən biridir. Müstəqilliyimizin möhkəmləndirilməsi, milli şüurun inkişafı, iqtisadiyyatın tərəqqisi və ordu quruculuğu Ulu Öndərin hakimiyyətdə olduğu dövrün əsas nailiyyətləridir. Ötən əsrin 90-cı illərinin əvvəllərində xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider tərəfindən dövlətçiliyin əsasları qoyulub və genişmiqyaslı islahatlara start verilib. Ulu Öndər Heydər Əliyevin Azərbaycana bəxş etdiklərini tarix boyunca ondan əvvəl heç kim bacarmayıb.

Xalqımız Dahi Şəxsiyyətin xilaskarlıq və quruculuq missiyasını unutmur və heç vaxt unutmayacaq. İyirminci əsrin 90-cı illərində çox çətin dönəm yaşamış Azərbaycan xalqı qurtuluşuna, bugünkü tərəqqisinə görə özünü Heydər Əliyevə borclu hesab edir. Hər il dekabrın 12-də və mayın 10-da Fəxri xiyabanda yaşanan izdiham Ulu Öndərin xatirəsinə böyük hörmətin əlamətidir. Xalqımız Heydər Əliyevin azərbaycançılıq ideologiyasına sadiqdir.

**(Ardı 2-ci səhifədə)**

## Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevlə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Ulu Öndər Heydər Əliyevlə bağlı rəsmi sosial şəbəkə hesablarında foto paylaşıb.

AZƏRTAC fotonu təqdim edir.

## Birinci vitse-prezident Mehriban Əliyeva Ulu Öndərin anım günü ilə əlaqədar paylaşım edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi sosial şəbəkə hesablarında Ulu Öndər Heydər Əliyevin anım günü ilə əlaqədar foto paylaşıb.

AZƏRTAC fotonu təqdim edir.

## Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyevin xatirəsini dərin ehtiramla anıb

*Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əbədiyyətə qovuşmasından 21 il ötür. Azərbaycan ictimaiyyətinin nümayəndələri hər il olduğu kimi, bu dəfə də Fəxri xiyabana gələrək Ulu Öndərin məzarını ziyarət edib, xatirəsini dərin ehtiramla anıblar.*

AZƏRTAC xəbər verir ki, müasir müstəqil Azərbaycan dövlətinin banisi, dünyaşöhrətli siyasi xadim Heydər Əliyevin xatirəsini yad etməyə gələnlər sırasında cəmiyyətin müxtəlif təbəqələrindən olan insanlar - qazilər, hərbçilər, müxtəlif təşkilatların nümayəndələri, elm və mədəniyyət xadimləri, müharibə və əmək veteranları və başqaları var. Çoxsaylı ziyarətçilər Ümummilli Liderin məzarı üzərinə gül dəstələri düzür, işıqlı xatirəsi önündə baş əyiblər.

Müstəqil Azərbaycanın bütün uğurları, qazanılan hər bir zəfərimiz Ulu Öndərin ölməz ideyalarının təntənəsidir. Heydər Əliyev yolu Azərbaycanı daim irəli aparır.

* * *

Ümummilli Lider Heydər Əliyevin xatirəsi Azərbaycanın bölgələrində, xarici ölkələrdə yaşayan soydaşlarımız tərəfindən də anılıb, müxtəlif anım tədbirləri təşkil olunub.




4-cü səhifədə

Ulu Öndərin anım günü ilə əlaqədar silsilə tədbirlər keçirilib



5-ci səhifədə

Heydər Əliyev fenomeni və tarixi Zəfərlə nəticələnən milli strategiya



7-ci səhifədə

Azərbaycan-Çin hərbi mütəxəssisləri arasında işçi görüşləri keçirilib



8-ci səhifədə

HHQ-də voleybol üzrə birincilik keçirilib

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər





(Əvvəli 1-ci səhifədə)

Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi, Azərbaycanı bütöv görmək idi. Dahi şəxsiyyətin bu arzusunu və vəsiyyətini onun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı, qüdrətli sərkərdə İlham Əliyev reallığa çevirib, ölkəmizin ərazi bütövlüyü və suverenliyi hərbi-siyasi yolla bərpa olunub. İndi üçrəngli Dövlət Bayrağımız bütöv Azərbaycanın hər bir guşəsində qürurla dalğalanır. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur hazırda yenidən qurulur, ərazilər minalardan təmizlənir, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır.

Görkəmli dövlət xadimi Heydər Əliyev cismən aramızda olmasa da, onun parlaq ideyaları Azərbaycanın inkişaf yolunu işıqlandırır. Ulu Öndərin müəyyənləşdirdiyi inkişaf yolu əzmlə davam etdirilir və ölkəmizi inamla irəli aparır. Bu gün Vətənimizin milli maraqlarını qətiyyətlə müdafiə edən Prezident İlham Əliyev uzaqgörən və titanik fəaliyyəti ilə Azərbaycanı dünya miqyasında, o cümlədən Türk dünyasında və bölgədə qüdrətli dövlətə, söz və nüfuz sahibinə, etibarlı tərəfdaşa çevirib.

Əminliklə söyləmək olar ki, Azərbaycan var olduqca Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayacaq və daha da inkişaf etdiriləcək.

# Müdafiə Nazirliyinin rəhbər heyəti Fəxri xiyabanı ziyarət edib







***Dekabrın 12-də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anım günü ilə əlaqədar Müdafiə Nazirliyinin rəhbər heyəti Fəxri xiyabanı ziyarət edib.***

Ulu Öndərin məzarı önünə əklil və gül dəstələri qoyulub, xatirəsi dərin hörmət və ehtiramla yad olunub.

Sonra görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə gül dəstələri düzülərək ehtiram nümayiş etdirilib.

## Azərbaycan-NATO hərbi əməkdaşlığı müzakirə edilib



Dekabrın 13-də müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ölkəmizdə səfərdə olan NATO Müdafiə Kollecinin komandanı general-leytenant Maks Nielsenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyi xəbər verir ki, Baş Qərargah rəisi Azərbaycan Ordusunda aparılan uğurlu islahatlar, ordumuzun Vətən müharibəsində qazandığı qələbə və sonrakı dövrdə keçirilmiş hərbi əməliyyatlarda əldə olunmuş döyüş təcrübəsinin qoşunlarımızın hazırlığında tətbiqindən danışıb.

General-polkovnik Kərim Vəliyev ölkəmizin NATO ilə müxtəlif proqramlar çərçivəsində həyata keçirdiyi əməkdaşlığı yüksək qiymətləndirərək əlaqələrin bundan sonra da inkişaf etdirilməsinin vacibliyini qeyd edib.

Göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən general-leytenant M.Nielsen Azərbaycana səfərindən məmnunluğunu ifadə edib. Qonaq NATO ilə tərəfdaşlıq çərçivəsində Azərbaycan Ordusunun hərbi qulluqçularının sülhməramlı missiyalarda və digər tədbirlərdə fəaliyyətini yüksək qiymətləndirib.

Görüşdə NATO ilə hərbi təhsil sahəsində əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

## Milli Müdafiə Universitetində Gürcüstan nümayəndə heyəti ilə görüş keçirilib



***Milli Müdafiə Universitetinin rektorunun elm üzrə müavini - Hərbi Elmi-Tədqiqat İnstitutunun rektoru general-mayor Arif Həsənov ölkəmizdə səfərdə olan Gürcüstan Respublikasının Milli Müdafiə Akademiyasının rektorunun müavini polkovnik Zurab Zerekidzenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Müdafiə Nazirliyi xəbər verir ki, gürcüstanlı qonaqlara Milli Müdafiə Universitetinin yaranma tarixi, təhsil sistemi və əsas fəaliyyət istiqamətləri ilə bağlı brifinq təqdim olunub, Azərbaycan Ordusunda hərbi təhsil sahəsində aparılan islahatlar barədə ətraflı məlumat verilib.

Görüşdə hərbi təhsil sahəsində qarşılıqlı maraq doğuran məsələlərə dair geniş fikir mübadiləsi aparılıb.

# Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlıq məsələləri müzakirə edilib







Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının Hərbi Hava Qüvvələrinin komandanı ordu generalı Ziya Cemal Kadıoğlunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Müdafiə Nazirliyi xəbər verir ki, türkiyəli qonaqlar əvvəlcə Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarlarını, həmçinin Şəhidlər xiyabanı və Türk Şəhidliyini ziyarət edərək əklil və gül dəstələri qoyub, xatirələrinə dərin ehtiram nümayiş etdiriblər.



Müdafiə Nazirliyində keçirilən görüşdə general-polkovnik Zakir Həsənov qonaqları salamlayıb və onları Azərbaycanda görməkdən məmnun olduğunu bildirib.

Müdafiə naziri Azərbaycan-Ermənistan şərti sərhədində mövcud əməliyyat şəraiti ilə bağlı Türkiyə nümayəndə heyətini məlumatlandırıb.

Azərbaycan-Türkiyə strateji müttəfiqliyinin dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu bildirən nazir hərbi əməkdaşlığımızın daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

Göstərilən səmimi qonaqpərvərliyə görə təşəkkürünü bildirən Z.C.Kadıoğlu ölkələrimiz arasında qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsinə yönəldilmiş hərbi əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edib.

Son zamanlar dünyada baş verən münaqişələrin, müasir döyüş üsullarının birgə təhlil olunması və öyrənilməsinin zəruriliyinin xüsusi vurğulandığı görüşdə, həmçinin hərbi, hərbi-texniki əməkdaşlıq, regional təhlükəsizlik və digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb. 15 ildir ki, davam edən Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq iclasının müsbət nəticələrindən danışılıb.

Sonra Azərbaycan Respublikasının müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev və müdafiə nazirinin müşaviri general-polkovnik Bəxtiyar Ersay qardaş ölkənin nümayəndə heyəti ilə görüşüb. Baş Qərargahda keçirilən görüşlər zamanı hərbi əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub, qarşılıqlı təcrübə mübadiləsi məqsədilə birgə təlimlərin keçirilməsinin, qoşunların uyarlılığının təmin olunmasının vacibliyi qeyd edilib.

Səfər çərçivəsində türkiyəli nümayəndələr Hərbi Hava Qüvvələrində olublar. Azərbaycan Respublikasının mü-



dafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Namiq İslamzadə rəsmi qarşılanma mərasimindən sonra qonaqlarla görüşüb.

Görüşdə Azərbaycan Ordusunda həyata keçirilən islahatlardan danışılıb, peşəkar kadr hazırlığı məqsədilə hərbi təhsil sahəsində əməkdaşlığın davam etdirilməsinin zəruriliyi vurğulanıb, eləcə də birgə hərbi əlaqələrin inkişaf istiqamətlərinə dair müzakirələr aparılıb.

Türkiyəli nümayəndə heyəti Hərbi Hava Qüvvələrinin Mərkəzi Komanda Məntəqəsində görülən işlər barədə ətraflı məlumatlandırılıb.





# ƏÜO komandanı Türkiyəyə səfər edib





Əlahiddə Ümumqoşun Ordu (ƏÜO) komandanı general-mayor Kənan Seyidov Türkiyə Respublikasının Quru Qoşunları komandanı ordu generalı Selçuk Bayraktaroğlunun dəvəti ilə Ankaraya səfər edib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə general-mayor K.Seyidovun rəhbərlik etdiyi nümayəndə heyəti Ankarada Heydər Əliyev Parkını və Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün mavzoleyini - Anıtqəbri ziyarət edib. Azərbaycan nümayəndə heyəti Ümummilli Lider Heydər Əliyevin parkdakı abidəsi və Mustafa Kamal Atatürkün məzarı önünə gül qoyub, xatirələrinə ehtiram nümayiş etdirib.

General-mayor K.Seyidov səfər çərçivəsində ordu generalı S.Bayraktaroğlu ilə görüşüb.

Görüş zamanı hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlığın daha da genişləndirilməsinin və birgə taktiki-xüsusi təlimlərin keçirilməsinin vacibliyi vurğulanıb, bu istiqamətdə görüləcək işlər və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlərdən danışılıb.

# Ulu Öndərin anım günü ilə əlaqədar silsilə tədbirlər keçirilib

*Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin vəfatının 21-ci ildönümü ilə əlaqədar dekabrın 12-də Azərbaycan Ordusunun qoşun növləri, birlik, birləşmə və hərbi hissələrində, Əlahiddə Ümumqoşun Ordu, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində silsilə tədbirlər keçirilib.*



Müdafiə Nazirliyi xəbər verir ki, hərbi hissələrdə ictimai-siyasi hazırlıq dərsləri, dəyirmi masalar, konfranslar keçirilib, Ulu Öndərin adını daşıyan muzeylərə ekskursiyalar təşkil olunub, həmçinin dahi şəxsiyyət Heydər Əliyevin şərəfli həyat və fəaliyyətindən bəhs edən sənədli filmlər nümayiş etdirilib.

Şəxsi heyət və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirlərdə Ulu Öndərin və respublikamızın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hərbi orkestrlərin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.



Keçirilən tədbirlərdə Ulu Öndərin şərəfli ömür yolundan və ölkəmizin hərbi, siyasi, iqtisadi, sosial, mədəni və digər sahələri üzrə gördüyü işlərdən danışılıb, əvəzsiz xidmətləri minnətdarlıq hissi ilə yad edilib.

Qeyd olunub ki, Ümummilli Liderin Azərbaycana rəhbərlik etdiyi illərdə onun zəngin dövlətçilik təcrübəsi və müdrikliyi sayəsində Azərbaycan sabit inkişaf yoluna qədəm qoyub, ordu quruculuğu prosesi qanuni əsaslarla həyata keçirilib.

Bu gün digər sahələrdə olduğu kimi, ordu quruculuğu sahəsində də Ulu Öndərin siyasi xəttini Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi bildirilib.

Çıxışlardan sonra Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivləri tərəfindən ədəbi-bədii kompozisiyalar təqdim edilib.

* * *

İyirminci əsrin sonlarında SSRİ-nin dağılması ilə Cənubi Qafqazda qədim tarixi, özünəxas mədəniyyəti, bənzərsiz gözəlliyi, bir sözlə, unikallığı ilə fərqlənən Azərbaycanın öz müstəqilliyini əldə etməsi üçün münbit şərait yaranmışdı. Lakin ölkəmiz öz müstəqilliyini yenidən bərpa etməsi ilə paralel olaraq, regionda qəliz geosiyasi vəziyyətlə üzləşmişdi. Rəhbərlikdə oturan şəxslərin səriştəsizliyi, ölkədə yaranmış xaotik durum ölkəni uçuruma doğru aparırdı. Sadalananların fonunda mənfur qonşularımız ölkəmizdə yaranan vəziyyətdən "öz xeyirlərinə" istifadə etməsi üçün tarixi torpaqlarımıza öz yersiz iddiasını bildirir, xalqımızın, əlelxüsus yaşlıların, qadınların və uşaqların başına heç bir insanlığa sığmayan oyunlar açır, onları öz evlərindən didərgin salırdılar. Qəhrəman əsgərlərimiz çətin şəraitdə, vahid komandanlığın mövcud olmadığı bir vəziyyətdə düşmənə qarşı döyüşsə də, ciddi müqavimət göstərə bilmir, torpaqlarımız mənfur erməni vandalları və onların havadarları tərəfindən işğal olunurdu. Ölkədə ağır vəziyyət hökm sürürdü. İqtidarda olanlar ölkədə xaos yaratmışdılar ki, bu vəziyyətdə ölkəmiz öz müstəqilliyini tam bərpa etməmiş birdəfəlik süquta doğru gedirdi. Belə olan halda, dövlətin başına öz xalqına, Vətəninə sadiq bir lider lazım idi. Bunun üçün də ən real namizəd ömrünün böyük hissəsini öz xalqının, ölkəsinin tərəqqisinə, firavanlığına həsr etmiş Dahi Rəhbər Heydər Əliyev idi. 1993-cü ilin yayında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə gəldi. Hər bir azərbaycanlının gələcəyə olan ümidi məhz Ulu Öndər Heydər Əliyevin qayıdışından sonra yenidən yaranmağa başlamışdı.

Müstəqil Azərbaycanımızın qurtuluş, inkişaf, dirçəliş və firavanlıq dövrü Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğu hər kəs üçün məlum həqiqətdir. Dahi Rəhbər xalqın yekdilli tələbi ilə hakimiyyətə gəldikdən sonra ölkəmizin hər sahədə inkişafı prioritet seçilmişdi. Lakin iki sahə var idi ki, biri Azərbaycanın qüdrətlənməsi, digəri isə ölkəmizin tərəqqisi üçün vacib idi. Bunlar iqtisadi və hərbi sahə idi. Ulu Öndərin gələcək üçün təyin etdiyi inkişaf strategiyasında ölkənin öz hesabına güclənməsi, hərbi potensialımızın daha da artırılması və ümumi olaraq müasir ordu quruculuğu sahəsinin dövrün tələblərinə uyğun qurulması və bu sahənin inkişafından irəli gələn prioritet məsələlər idi. Əbədiyaşar Komandan Heydər Əliyevin cəbhə bölgəsində döyüşçülərimizi ziyarət etməsi hər bir hərbi qulluqçunun döyüş ruhuna müsbət təsir edən, onun mənəvi-psixoloji hazırlığını artıran nüanslardan biri oldu. Azərbaycan Ordusunun güclənməsinin, şəxsi heyətin döyüş ruhunun yüksəlməsinin ilk işartıları Birinci Qarabağ müharibəsi zamanı Füzuli cəbhəsində baş tutan Horadiz əməliyyatı zamanı göründü. Horadiz əməliyyatı tarixdə Birinci Qarabağ müharibəsi zamanı qazanılan ən böyük uğurlardan biri idi. Danışıqların nəticə verməyəcəyi təqdirdə yenə son sözü Azərbaycan əsgəri deyəcəkdi. Bunun üçün də əvvəlcə ordu quruculuğu istiqamətində mühüm addımlar atılmalı, atəşkəsin imzalanması vacib idi. 1994-cü il mayın 12-də



atəşkəs müqaviləsi imzalandıqdan sonra ölkədə aparılan iqtisadi və hərbi quruculuq işləri daha da sürətləndi. Ordu quruculuğu ilə bağlı geniş islahatlar aparıldı, ordunun təcrübəli və bacarıqlı komandir heyəti ilə komplektləşdirilməsi, şəxsi heyətin sosial rifahının təmin olunması, əsgərlərin mənəvi-psixoloji hazırlığının artırılması, Silahlı Qüvvələrin maddi-texniki bazasının yaxşılaşdırılması və digər məsələlərin həll edilməsi vacib zərurətə çevrilmişdi ki, bu istiqamətlərdə təxirəsalınmaz işlər görüldü. Böyük Öndər ordunun müstəqillik atributu, mövcudluq qarantı olduğunu bilirdi. 1993-cü ilin sonlarından Azərbaycan Ordusu öz dövrünün yeni mərhələsinə qədəm qoymuşdu. Çünki Əbədiyaşar Komandan Heydər Əliyev hərb sahəsinin inkişafının vacibliyini çıxışlarında da tez-tez qeyd edirdi. Bunun üçün də ordu quruculuğundakı nöqsanların aradan qaldırılması, təcrübəli hərbi kadrların hazırlanması, onların öz ixtisasına uyğun təkmilləşdirilməsi də hərb sahəsinin qarşısında duran və böyük əhəmiyyət kəsb edən məsələlərindən idi. Heydər Əliyevin hakimiyyətdə olduğu müddətdə hərbi hissələrə səfəri, hərbi qulluqçularla görüşməsi, onların qayğı və problemləri ilə maraqlanıb həlli istiqamətində tapşırıqlarını verməsi özlüyündə öz ordusuna göstərilən diqqətin və şəxsi heyətə yüksək dəyər verildiyinin təzahürü idi.



Ordu quruculuğunun tərkib hissələrindən biri də dünya təcrübəsinin ordumuzda tətbiqi və müasir standartların ordumuza inteqrasiyası idi ki, düzgün qurulmuş diplomatiyamız sahəsində, hərbi əməkdaşlıq sahəsində, əldə olunan uğurlar sayəsində dünyanın aparıcı ordularına malik ölkələri, NATO kimi nəhəng və modern ordu sisteminə malik beynəlxalq təşkilatlar ilə əlaqələrimiz gücləndirildi. Bir sözlə, Azərbaycan Ordusu qısa vaxt ərzində tarixi inkişaf yolu keçdi. Bunun başlıca səbəbi Əbədiyaşar Komandan, xalqına sadiq, uzaqgörən diplomat, tarixi şəxsiyyət, müqayisəolunmaz lider Heydər Əliyev idi.

Bu gün Qalib Ordumuz mövcuddur. Bu qalibiyyəti şərtləndirən amillər güclü fundament, misilsiz vətənpərvərlik, yüksək döyüş hazırlığı və xalqa sədaqət oldu. Ordumuzun gücü bu gün də artır, hərbi qüdrəti təkcə regionla kifayətlənmir, dünyanın aparıcı orduları bizim son illərdə yazdığımız hərbi tarixi öyrənir, analiz edir, beynəlxalq hərbi mərkəzlərdə bizim müasir döyüş üsul və vasitələrimiz tədris olunur. Bu uğurların da səbəbi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hərb sahəsində təməlini qoyduğu işlərin bu gün onun siyasi kursunun layiqli davamçısı, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən inamla davam etdirilməsidir. Qalib ordumuzun bugünkü səviyyəsi ordu quruculuğumuzun düzgün və dəqiq aparıldığının təzahürüdür. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan, gənc olmasına baxmayaraq, bu gün dünyanın aparıcı orduları ilə eyni sırada qərarlaşan Azərbaycan Ordusu 2016-cı ilin Aprel döyüşləri, 2018-ci ilin mayında Günnüt zəfəri, 2020-ci ilin İkinci Qarabağ müharibəsi və nəhayət, ərazi bütövlüyümüzün təmin olunması ilə nəticələnən 2023-cü ilin antiterror əməliyyatı Azərbaycanın qısa tarix ərzində yazdığı şanlı qələbələrdir. Bu gün ölkəmizin özünümüdafiə qüdrəti artır, hərbi qulluqçuların sosial rifahının yaxşılaşdırılması üçün dövlət başçımız səylə çalışır. Azərbaycan əsgəri də öz növbəsində sərkərdəsinin hər əmrinə müntəzir, xalqının inamına layiqdir. Qədirbilən xalqımızın xilaskarlıq, dirçəliş və inkişaf missiyasını layiqincə yerinə yetirən Ümummilli Lider Heydər Əliyev tarixdə silinməz iz qoymuş, mümkünsüzü bacarmış bənzərsiz dövlət xadimidir. Onun həm sovet dövründə rəhbər vəzifədə çalışması, həm də müstəqillik illərində Azərbaycana rəhbərlik etməsi yuxarıda deyilənləri təsdiq edən, müqayisəolunmaz faktdır. XX əsrin aparıcı lideri olan Heydər Əliyev tarixə müasir Azərbaycan Respublikasını quran prezident kimi düşdü, həmişə xalqı üçün Böyük Öndər olaraq qalacaq.

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

# Heydər Əliyev fenomeni və tarixi Zəfərlə nəticələnən milli strategiya

Bu il torpaqlarımızın Ermənistan silahlı birləşmələrinin işğalından azad olunmasının, ölkəmizin suverenliyinin və ərazi bütövlüyünün tam bərpası ilə nəticələnən Vətən müharibəsində qələbəmizin 4-cü, uğurlu antiterror əməliyyatının 1-ci ildönümünü qürurla qeyd etdik.

Yaxın tariximizdə ölkəmizdə həyata keçirilən və sonda şanlı Zəfərimizi təmin edən bütün proseslər, xüsusilə də ordu quruculuğu prosesi Azərbaycana rəhbərliyi dövründə xalq qarşısında misilsiz xidmətləri olan Ümummilli Lider Heydər Əliyevin gördüyü işlər, cərəyan edən hadisələr, islahatlar və qəbul olunmuş qərarlar haqqında onun anım günündə yenidən danışmaq Dahi Rəhbərə hörmət və ehtiramın göstəricisidir.

Hər bir xalq görkəmli şəxsiyyətləri ilə tanınır. Onlar xalqın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını, qüdrətini dünyaya nümayiş etdirirlər. Tariximizin ən çətin və keşməkeşli dönəmində Azərbaycanın və xalqımızın nicatı, qurtuluşu, xoşbəxt gələcəyi, müasir dövlətimizin qorunması, eləcə də quruluşu, inkişafı naminə hakimiyyətə qayıtmış Ulu Öndər Heydər Əliyev məhz belə dahi tarixi şəxsiyyətlərdəndir.

Heydər Əliyevin Azərbaycan naminə müdrik fəaliyyəti çoxəsrlik tarixə əsaslanan milli dövlətçiliyimizin və dövlət müstəqilliyimizin inkişaf salnaməsidir. Heydər Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş, respublikamızın gələcək inkişaf strategiyasının əsaslarını müəyyən etmiş, gələcək uğurların təməlini qoymuş və xalqımızın tarixi taleyində silinməz izlər buraxmışdır. Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış, elmin, təhsilin və mədəniyyətin inkişafı, bir sözlə, elə bir sahə yoxdur ki, orada Heydər Əliyevin izi, əməyi olmasın.

Bu gün tarixə nəzər saldıqda illər öncə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin səsləndirdiyi fikirlərin tarixi baxımdan nə qədər düzgün, önəmli olduğunun şahidi oluruq. Bu gün desək ki, Heydər Əliyev bəzi hadisələrin qarşısını almağa hələ 1971-ci ildən başlamışdı, tam yerinə düşər. Bəli, dahi insan olaraq Ulu Öndərin ən gözəl xüsusiyyətlərindən biri məhz hadisələrin nəticəsinin aradan qaldırılmasına deyil, baş verə biləcək proseslərin qarşısının əvvəlcədən alınmasına üstünlük verməsidir.

Düşünürük ki, 1971-ci ildə indiki Cəmşid Naxçıvanski adına Hərbi Liseyi yaratmaqla, azərbaycanlı gəncləri hərbi təhsilə sövq etməklə və yönəltməklə gələcəkdə baş verə biləcək hadisələri öncədən gördüyünün qənaətinə gəlmək, hətta bunu iddia etmək mümkündür.

Tarixi faktlardan öyrəndiklərimizə görə çoxlarımıza məlumdur ki, sovetlər birliyi bərqərar olduğu ilk illərdən başlayaraq bütün məqaişə ocaqlarında həyata keçirilən döyüş əməliyyatları zamanı sovet qoşunlarının tərkibində xidmət



edən azərbaycanlı hərbi qulluqçular qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində fəal iştirak etmişlər. Lakin bütün bu igidliklərə, qəhrəmanlıqlara, yüksək xidmətlərə rəğmən soydaşlarımızın geniş tərkibdə ali hərbi təhsil müəssisələrinə qəbul edilməsinə süni maneələr yaradılmış, savadı, biliyi, istedadı sayəsində irəli çıxmağa nail olan hərbçilərimizə qarşı isə həmişə qısqanclıqla yanaşılmışdır. Sovetlər dönəmində, yəni, keçən əsrin 60-cı illərində respublikamıza rəhbər təyin edilən Heydər Əliyevin ilk mübarizə apardığı amil də məhz bu oldu - azərbaycanlı gənclərin hərbi xidmətə olan marağının qarşısında yaradılan maneələrin aradan qaldırılması və azərbaycanlı hərbçilərə qarşı haqsız davranışların kökünü kəsmək.

Üstündən illər keçdikdən sonra bu gün fəxrlə, qürurla deyə bilərik ki, bu işin öhdəsindən Heydər Əliyev inamla, qətiyyətlə gəldi. Onun bu istiqamətdə fəaliyyətlərini, atdığı addımları təhlil edərkən əminliklə deyə bilərik ki, müasir Azərbaycan Ordusunun təməlini Ulu Öndər uzaqgörənliklə məhz həmin illərdən qoymağa başlamışdır. Tarixi faktlar da bunun əyani şahididir.

Xalqımızın Dahi Rəhbərə sevgisi onun ölkəmiz və xalqımız qarşısında misilsiz xidmətlərinə dərin hörmətinin və ehtiramının təcəssümüdür. Keçirilən müxtəlif məzmunlu tədbirlərdə həmişə Heydər Əliyevin bir çox sahələrdə xidmətləri, qazandığı uğurlar yada salınır, xatirəsi anılır və onun ölkəmizin çiçəklənməsi naminə gördüyü böyük işlər hörmətlə bir daha xatırlanır. Bu da təbiidir. Ulu Öndərin həyat və yaradıcılığı, mübarizə yolu tükənməyən bir xəzinə, irsdir. Dahi Lider daima xatırlanacaq, əsrlər keçdikcə unudulmayacaq ən böyük xidməti, ən böyük irsi isə, təbii ki, müstəqil Azərbaycan dövləti və onun müasir, qüdrətli, şanlı ordusudur.

Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və əbədi müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur.

Dünya miqyaslı rəhbər, Əbədiyaşar Komandan Heydər Əliyev irsinin öyrənilməsi, xatırlanması böyük ehtiramın göstəricisi, eyni zamanda, təbliği və gələcək nəsillərə çatdırılması istiqamətində atılan düzgün addımların təzahürüdür. Zaman göstərir ki, hər xalqın tarixində taleyüklü rol oynamış belə şəxsiyyətlərin həyat və fəaliyyətinin, qoyub getdiyi irsin öyrənilməsi gələcək nəsillərin vətənpərvər böyüməsində önəmli rol oynayır.

Ölkəmizin tarixində dünya miqyasında məşhur sərkərdələr, elm və dövlət xadimləri çox olub. Lakin XX əsrdə xalqımızın taleyində ən dərin izlər buraxmış görkəmli ictimai-siyasi xadim, müasir Azərbaycan dövlətinin və ordusunun qurucusu Ulu Öndər Heydər Əliyevin xidmətləri əvəzsizdir.

Bu gün fəxrlə qeyd edirik ki, XX əsrin 60-cı illərindən sovet Azərbaycanına rəhbərlik etməyə başlayan, bütün ömrünü xalqa xidmətə həsr edən Ulu Öndərin ictimai-siyasi fəaliyyəti də qədim xalq və dövlətçilik ənənələrimizin ən bariz təcəssümüdür. Heydər Əliyev keçmiş sovetlər birliyində respublikamıza rəhbərlik edərkən ölkəmizdə bütün istiqamətlərdə mühüm yeniliklərə, uğurlara nail olunmuş və Azərbaycanda hər sahədə baş verən müsbət dəyişikliklər təkcə ölkəmizdə deyil, ittifaq miqyasında da daim təqdir edilmişdir. Ötən illərə nəzər salsaq, Heydər Əliyevin xidmətləri sayəsində Azərbaycanın həmin vaxtlardan başlayaraq təkamül dövrünə qədəm qoyduğunu bu gün tam əminliklə deyə bilərik.

Heç kimə sirr deyil ki, Ümummilli Lider Heydər Əliyev respublikamıza rəhbərlik etməyə başladığı ilk günlərdən qəbul etdiyi qərarlar onu uzaqgörən siyasətçi, gələcəyə nikbin baxan rəhbər, qətiyyətli müdrik dövlət xadimi kimi tanıtmışdır. Onun iradəsi, zəngin təcrübəsi, yüksək idarəçilik bacarığı, gözəl insani keyfiyyətləri, tükənməz enerjisi, işgüzarlığı, əzmkarlığı və ən əsası vətənsevərliyi başladığı işlərin uğurla başa çatmasının təminatçısı olmuşdur.

Təbii ki, Ulu Öndərin ən çox önəm verdiyi sahələrdən biri də hərbi sahə idi. O, daima çalışırdı ki, azərbaycanlı gənclər bütün sahələrdə, xüsusilə də hərbi sahədə uğur qazansınlar. Çar Rusiyası zamanından qalmış bir ənənə sovetlər dönəmində də davam edirdi. Azərbaycan övladlarının hərbi xidmət keçməsi, ali hərbi təhsil alaraq hərbi karyerada yüksəlməsi müxtəlif yollarla əngəllərə məruz qalan məsələ idi. Azərbaycanlılar az sayda Sovet ordusunda xidmətə qəbul olunsalar da, yüksək vəzifələrə təyin edilmir, baş zabit və ali hərbi rütbələrə çox nadir hallarda layiq görülürdülər. Bu səbəbdən də ittifaq miqyasında azərbaycanlı generalları, yüksək vəzifəyə təyin edilən hərbçiləri barmaqla saymaq mümkün idi. Lakin Heydər Əliyev üçün bu hal qəbulolunmaz idi və o bu faktla heç vaxt barışmadı. Azərbaycana rəhbərlik etdiyi dövrdə bu stereotipi sındırmaq üçün Ulu Öndər var gücü ilə çalışdı və bütün maneələrə baxmayaraq buna nail oldu.

Tarix göstərdi ki, Azərbaycana rəhbərliyi dövrünün ilk illərində - 1971-ci ildə Ulu Öndər Heydər Əliyevin indiki Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılmasına nail olması, həm Ulu Öndərin özü, həm də Azərbaycan üçün taleyüklü bir hadisə oldu. Çünki sovetlər dövründə belə bir addımı atmaq yüksək qətiyyət, iradə, böyük cəsarət tələb edirdi. Eyni zamanda, xalqımızın taleyində də bu addım müstəsna rol oynadı. Bütün təqiblərə, hədələrə, əngəllərə baxmayaraq Heydər Əliyevin yaratdığı Hərbi lisey müstəqil Azərbaycanda nizami ordu quruculuğuna misilsiz töhfələr verdi.

Hərbi liseydə aparılan işləri daima nəzarətdə saxlayan Heydər Əliyevin qətiyyətli mövqeyi nəticəsində liseydə təhsil alan azərbaycanlı yeniyetmələrin sayı ilbəil artır və qəbul zamanı yerli yeniyetmələrə üstünlük verilirdi. Ulu Öndərin özünün də dediyi kimi, bu təhsil ocağını doğma övladı qədər sevər, diqqətqayğı göstərər, tez-tez liseyə gələrək burada oxuyan azərbaycanlı kursantlarla görüşər, onların qayğıları ilə maraqlanar, təhsildə qazandıqları uğurlarla fəxr edərdi.

İlk illərdən başlayaraq onun israrlı təkidləri, tələbləri nəticəsində dahi şəxsiyyətin böyük çətinliklər hesabına yaratdığı bu hərbiləşdirilmiş ibtidai məktəbə qəbul olanların böyük əksəriyyəti azərbaycanlı yeniyetmələr və yerli gənclər oldu. Müstəqil Azərbaycanın milli ordusunda xidmət edəcək gələcəyin zabitləri hərbi təhsildə ilk addımlarını məhz Cəmşid Naxçıvanski adına Hərbi Liseydə atdılar. Dahi Rəhbər həmişə hərbi təhsilə, milli hərbi kadrların yetişdirilməsinə də xüsusi diqqət ayırmışdır.

Sovetlər dönəmində müxtəlif ali partiya vəzifələrində çalışan Ümummilli Lider Heydər Əliyev daima azərbaycanlı gənclərin hərbi təhsil almasına və zabit olmasına xüsusi həssaslıqla yanaşırdı. Danılmaz faktdır ki, məhz Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində Hərbi liseydə təhsilə yanaşı, azərbaycanlı gənclər sovetlər birliyinin bir çox hərbi məktəblərinə göndərilmişdir. Həmin dövrlərdə ali hərbi təhsil alan zabitlər respublikamız müstəqillik qazandığı ilk gündən Vətənə dönərək Azərbaycan Ordusunun yaradılmasında, inkişafında var qüvvələri ilə çalışmış, Birinci və İkinci Qarabağ müharibələrində fəal iştirak etmiş, qəhrəmanlıq nümunələri göstərmişlər.

Azərbaycan xalqı XX əsrin sonuna yaxın yenidən müstəqilliyinə qovuşduğu ilk aylardan Azərbaycanın ərazi bütövlüyünə qarşı ermənilərin başladığı elan olunmamış müharibə Ermənistanla sərhəd boyu ərazilərdə və Qarabağ iqtisadi zonasında geniş vüsət almışdı. Ermənistan silahlı birləşmələrinin öz havadarlarının dəstəyi ilə başladığı işğal prosesinin miqyası günbəgün genişlənirdi. Belə bir zamanda Azərbaycanı düçar olduğu bu bəladan xilas edəcək liderə ehtiyac var idi. Xalqımızın seçdiyi, sevdiyi belə bir lider isə təcrübəli, müdrik, uzaqgörən, qətiyyətli və iradəli şəxs olan Heydər Əliyev idi. 1993-cü ildə xalqın təkidli tələbi ilə iyunun 15-də Ulu Öndər Heydər Əliyev Bakıya dəvət edildi və böyük rəğbətlə Ali Sovetin sədri seçildi.

Heç kimə sirr deyil ki, Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilmiş torpaqlarımızın Vətən müharibəsi zamanı azad edilməsi dövlətimizin son illər yürütdüyü böyük bir strategiyanın nəticəsidir. Bu qətiyyətli strategiyanın həyata keçirilməsində ordu quruculuğu prosesi daima ən əsas və prioritet məsələlərdən biri olmuşdur. Məhz bu səbəbdən də baş verə biləcək prosesləri düzgün qiymətləndirməyi bacaran dahi şəxsiyyət Heydər Əliyev yenidən hakimiyyətə gəldiyi ilk gündən ən çox diqqət yetirdiyi istiqamətlərdən biri də məhz vahid komandanlıqdan idarə olunan müasir, nizami ordunun yaradılması və ölkəmizin hərbi qüdrətinin artırılması oldu.

Yenidən hakimiyyətə dəvət edilən Heydər Əliyevin qətiyyətli qərarları sayəsində ölkədə uğurlu iqtisadi layihələrə start verildi, respublikamızda ordu quruculuğu ilə bağlı daha böyük islahatlar başlanmasına imkan yarandı və gələcək qələbələrimizin təməli qoyuldu. Müstəqilliyin ilk illərində mövcud olan ayrı-ayrı şəxslərə və siyasi qruplaşmalara xidmət edən silahlı birləşmələr Heydər Əliyevin məqsədyönlü siyasəti və iradəsi nəticəsində ləğv edildi, ordunun yenidən formalaşdırılması, Azərbaycanın müasir tələblərə cavab verən silahlı qüvvələrinin yaradılması ilə bağlı təxirəsalınmaz tədbirlər görülməyə başlandı. Ulu Öndər Heydər Əliyev tez-tez cəbhə bölgəsinə səfərlər etdi, döyüşən hərbi hissələrdə ordu mənsubları ilə görüşlər keçirdi. Dövlətimizin başçısının qısa müddətdə gördüyü işlər və cəbhə bölgəsinə səfərləri şəxsi heyətin böyük ruh yüksəkliyinə səbəb oldu. Atılan müsbət addımların nəticəsi olaraq ordumuzun bölmələri Füzuli-Horadiz istiqamətində düşmənə sarsıdıcı zərbələr endirdi, böyük ərazilərimiz işğaldan azad olundu və torpaqlarımızın tam azad edilməsi istiqamətində qələbələrimizin təməli qoyuldu.

**(Ardı 7-ci səhifədə)**

# NATO Müdafiə Kollecinin “Ali kurs” heyəti ölkəmizdə səfərdə olub

NATO Müdafiə Kollecinin komandanı general-leytenant Maks Nielsen və onun rəhbərlik etdiyi "Ali kurs"un heyəti ölkəmizə "Sahə Araşdırmaları səfəri" çərçivəsində ADA Universtitetində və "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-də olub.

ADA Universitetində keçirilən tədbiri giriş nitqi ilə prorektor, Milli Məclisin deputatı Fariz İsmayılzadə açıb.

Müdafiə Nazirliyi xəbər verir ki, sonra fəxri qonaq qismində dəvət olunan Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri cənab Hikmət Hacıyev qonaqları salamlayaraq, onları ölkəmizdə görməkdən məmnun olduğunu qeyd edib. Cənab H.Hacıyev "Azərbaycanın xarici siyasəti", "Regional Təhlükəsizlik və yeni çağırışlar" mövzularında çıxış edib, qonaqları maraqlandıran sualları cavablandırıb.







Tədbirdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Amerika İdarəsinin rəisi, siyasi elmlər üzrə fəlsəfə doktoru Esmira Cəfərova "Azərbaycanın Enerji Strategiyası" mövzusunda təqdimat verərək ölkəmizin iştirak etdiyi regional və dünyəvi iqtisadi layihələr barədə qonaqları məlumatlandırıb.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin nümayəndəsi polkovnik Ramil Şükürov ölkəmizdə ordu quruculuğu istiqamətində görülən işlərdən danışıb, həmçinin "Azərbaycan-NATO əməkdaşlığı" və "Müdafiə strategiyası" mövzularına dair təqdimat verib.

NATO Müdafiə Kollecinin "Ali Kurs"unun dinləyicilərinin ünvanladığı suallar çıxış edənlər tərəfindən cavablandırılıb.

Tədbirdə, həmçinin Slovakiya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Milan Layçak, Latviya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Edqars Skuya, Müdafiə Nazirliyinin və ADA Universitetinin nümayəndələri iştirak ediblər.

Daha sonra NATO nümayəndə heyəti "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-ni ziyarət edib.

Görüşdə qonaqlara Bakı Limanının tarixi, fəaliyyət sahələri, strateji əhəmiyyəti, beynəlxalq əlaqələri və gələcək inkişaf planları haqqında ətraflı məlumat verilib. Həmçinin limanın yükdaşımaları, logistik xidmətlər, ətraf mühitin qorunması və rəqəmsal transformasiya sahələrindəki uğurları haqqında danışılıb.

Limanın ərazisindəki müasir infrastruktur və obyektlərlə tanış olan qonaqlar limanın inkişafı və gələcək perspektivləri barədə əldə etdikləri məlumatlardan məmnun olduqlarını ifadə ediblər.



# MMU-da NATO Müdafiə Kollecinin nümayəndə heyəti ilə görüş keçirilib

*Dekabrın 13-də Milli Müdafiə Universitetinin (MMU) rektoru general-mayor Gündüz Əbdülov ölkəmizdə səfərdə olan NATO Müdafiə Kollecinin komandanı general-leytenant Maks Nielsenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*



Müdafiə Nazirliyi xəbər verir ki, NATO Müdafiə Kollecinin nümayəndə heyətinə MMU-nun yaranma tarixi, təhsil sistemi və əsas fəaliyyət istiqamətləri ilə bağlı brifinq təqdim olunub, Azərbaycan Ordusunda hərbi təhsil sahəsində aparılan uğurlu islahatların müsbət nəticələri barədə ətraflı məlumat verilib.

Görüşdə hərbi təhsil sahəsində qarşılıqlı maraq doğuran məsələlərə dair geniş fikir mübadiləsi aparılıb. Bu istiqamətdə görülən işlərin daha da genişləndirilməsi və birgə layihələrin həyata keçirilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

# Hikmət Hacıyev: Ermənistanın silahlandırılması məsuliyyətli parametrlər çərçivəsində olmalıdır

Ermənistanın militarizasiya proqramı həyata keçirilir. Bunun arxasında duran əsas qüvvələrdən biri Avropa İttifaqının və NATO-nun üzv ölkəsi olan Fransadır. Təəssüf ki, Fransa özünün beynəlxalq öhdəliklərinə rəğmən Ermənistanın silahlandırılması ilə bağlı proqramda iştirak edir.

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev söyləyib.

O bildirib ki, beynəlxalq münasibətlərin məcəlləşdirilməsi prosesi İkinci Dünya müharibəsindən sonra başlayıb. Bu prosesdən sonra azsaylı ölkələr var ki, işğal və təcavüz törədib. Ermənistan da belə bir cinayət törətmiş ölkədir. Bu baxımdan Ermənistanın silahlandırılması məsuliyyətli parametrlər çərçivəsində olmalıdır. Ermənistana, xüsusilə Fransa tərəfindən verilən öldürücü və hücum xarakterli silahlar ciddi narahatlıq doğurmaqdadır. Ermənistanın silahlandırılması təkcə Fransa deyil, başqa dövlətlər tərəfindən də həyata keçirilir.

# Gürcüstan nümayəndə heyətləri hərbi təhsil müəssisələrində olub



Ölkəmizdə səfərdə olan Gürcüstan Respublikasının Milli Müdafiə Akademiyasının və Gürcüstan Müdafiə Təsisatlarında İslahatlar Məktəbinin "Müdafiə və Təhlükəsizlik Strateji Kursu"nun nümayəndələri xüsusi təyinatlı hərbi təhsil müəssisələrini ziyarət ediblər.

Müdafiə Nazirliyi xəbər verir ki, səfər çərçivəsində qonaqlar Milli Müdafiə Universitetinin (MMU) Hərbi İdarəetmə İnstitutu və Cəmşid Naxçıvanski adına Hərbi Liseyin rəhbər heyətləri ilə görüşüblər.

Gürcüstan nümayəndə heyətlərinə Milli Müdafiə Universitetinin fəaliyyəti, habelə hərbi təhsil sahəsində həyata keçirilmiş islahatlar barədə ətraflı məlumat verilib. Həmçinin Cənubi Qafqazda regional təhlükəsizlik mühiti mövzusunda maraq doğuran məsələlər üzrə qarşılıqlı fikir mübadiləsi aparılıb.



# Heydər Əliyev fenomeni və tarixi Zəfərlə nəticələnən milli strategiya

(Əvvəli 5-ci səhifədə)

1994-cü il mayın 12-də Ermənistan-Azərbaycan hərbi münaqişəsində atəşkəs haqqında müqavilə imzalandıqdan sonra Azərbaycan Ordusunun formalaşması, peşəkarlığının yüksəldilməsi prosesi daha da sürətləndi. Bu gün hərbi xidmət keçən hər bir azərbaycanlı qürur hissi ilə qeyd edir ki, müstəqil Azərbaycanın hərb tarixində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rolu əvəzsizdir. Bu üzdən də onu müasir Azərbaycan Ordusunun banisi adlandırırıq. Güclü, qüdrətli Azərbaycan Ordusunun yaradılması dahi şəxsiyyətin başlıca məqsədi, amalı idi.

Eyni zamanda, əbədiyaşar Ali Baş Komandan Heydər Əliyev hərbçilərə və onların ailə üzvlərinə də xüsusi diqqət və qayğı göstərir, xidməti-döyüş fəaliyyətinin, mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində də mühüm addımlar atırdı. Hərbi qulluqçuların müharibə veteranlarının müavinətlərinin müntəzəm olaraq artırılması bu qayğının təzahürü idi. Orduya və ordu mənsublarına, müharibə veteranlarına diqqət və qayğı göstərən Ulu Öndər Heydər Əliyev həmişə belə insanlarla görüşür, onların qayğılarını dinləyir və qaldırılan məsələlərin həll edilməsi üçün lazımi tapşırıqlar verirdi.

Prezident seçildiyi ilk gündən Heydər Əliyev ölkənin qarşısında duran mühüm vəzifələrdən biri olan xarici siyasət kursunun formalaşdırılması və həyata keçirilməsinə başladı. Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzünün qarşısını almaq, onun ağır nəticələrini aradan qaldırmaq, dövlətimizin ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək, dünyaya siyasi və iqtisadi inteqrasiya olunmaq zərurəti düşünülmüş, ardıcıl və fəal xarici siyasət tələb edirdi. 1993-cü ilin ikinci yarısında Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı. Bundan sonra Azərbaycanın xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkəmizin milli mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi, müstəqil diplomatiya həyata keçirildi. Bu dövrdən başlayaraq həyata keçirilən xarici siyasətimiz məhz Ümummilli Liderin adı və fəaliyyəti ilə bağlıdır. Özünün zəngin dövlətçilik təcrübəsinə əsaslanaraq dövlətimizin yeni xarici siyasət kursunun əsas istiqamətlərini müəyyənləşdirən Heydər Əliyevin bu yenilənmiş xarici siyasət xəttində, ilk növbədə, bir sıra ən mühüm və təxirəsalınmaz vəzifələrin yerinə yetirilməsi qarşıya qoyulmuşdu.

Bu vəzifələrdən biri və ən əsası Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxarmaq, ölkəmiz haqqında yaradılmış mənfi ictimai rəyi dağıtmaq, xalqımızın haqq işini dünya ictimaiyyətinə olduğu kimi çatdıraraq, respublikamız ətrafındakı informasiya blokadasını yarmaqdan ibarət idi. Ümummilli Lider çox bacarıqlı, son dərəcə təcrübəli dövlət başçısı və yetkin siyasi xadim kimi bu çətin və mürəkkəb vəzifələrin öhdəsindən müvəffəqiyyətlə və böyük ustalıqla gəlmək bacarığı nümayiş etdirdi. Ümummilli Lider Heydər Əliyev xarici siyasət xəttində beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi məsələlərinə çox böyük diqqət yetirirdi.

Regionda və dünyada baş verən prosesləri böyük ustalıqla təhlil etmək, düzgün nəticə və qərarlar çıxarmaq dühasına malik olan Heydər Əliyev milli strategiyamızda müstəqil diplomatiyaya və beynəlxalq hərbi əməkdaşlığa xüsusi diqqət ayırırdı. Ordu quruculuğu prosesində NATO-nun əsas aparıcı gücü olan Türkiyənin ordu modelinə daha böyük üstünlük verirdi. Sevindirici haldır ki, bu işlər bu gün də Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Ordusunun müasir dünya ordularına inteqrasiyası, birgə təlimlərdə hərbçilərimizin iştirakı, təcrübə mübadiləsi, müxtəlif sahələrdə hərbi əməkdaşlıq, ən müasir silah, texnika və avadanlıqların ordumuzun arsenalına daxil olması, eləcə də ordumuzun Türkiyə Silahlı Qüvvələrinin modelinə uyğunlaşdırılması istiqamətində böyük uğurlar əldə edilmişdir.

Azərbaycanın beynəlxalq təşkilatlara üzv olması ilə yanaşı, onların işlərində fəal surətdə iştirak etməsi və səmərəli əməkdaşlıq ölkəmizin problemlərini dünya ictimaiyyətinə çatdırmaq üçün mühüm əhəmiyyət kəsb edirdi. Bu baxımdan Heydər Əliyevin "Sülh naminə tərəfdaşlıq" proqramının çərçivə sənədini imzalaması Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi istiqamətində atılan mühüm addımlardan biri oldu. Bu proqrama daxil olmaqla Azərbaycan NATO-ya daxil olan Avropa ölkələri və ABŞ ilə dünya təhlükəsizlik sisteminin, eləcə də beynəlxalq münasibətlərin sivil qaydaları çərçivəsində hər cür əməkdaşlıq etmək imkanı qazandı. Bu, öz növbəsində, NATO-nun hərbi strukturları ilə Azərbaycan Ordusunun sülh naminə əməkdaşlıq etmək, birgə təlim və manevrlər keçirmək, onların ordu quruculuğu təcrübəsindən bəhrələnmək, kadr hazırlığı və s. sahələrdə birgə hərəkət etmək imkanı verirdi. Bununla yanaşı, ölkəmizin bu proqramda iştirakı qarşıya qoyulan məqsədlərin həyata keçirilməsi üçün də əlverişli şərait yaratdı.

Belə ki, ölkəmiz 1994-cü ildə NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulan ilk dövlətlərdən olub və bu təşkilatın əksər qurumlarının işində fəal iştirak edərək NATO ilə mümkün tərəfdaşlıq mexanizmlərindən tam şəkildə bəhrələnməkdə davam edir. Ölkəmiz müdafiə sahəsində öz üzərinə götürdüyü beynəlxalq hüquq öhdəliklərinin yerinə yetirilməsi istiqamətində də müsbət işlər görərək beynəlxalq təhlükəsizliyə böyük töhfə vermişdir.

Heydər Əliyevin gərgin əməyi nəticəsində Azərbaycanın bir çox ölkələrdə səfirlikləri açıldı, hərbi attaşelik institutu təsis edildi, eləcə də xarici dövlətlərin səfirlikləri Azərbaycanda fəaliyyətə başladı.

Beynəlxalq tərəfdaşlıq mexanizmlərində iştirakının davam etdirilməsi, respublikamızın dünyanın qabaqcıl dövlətləri ilə hərbi, hərbi-texniki, hərbi tibb və hərbi təhsil sahələrində qarşılıqlı faydalı əsaslara söykənən ikitərəfli və çoxtərəfli hərbi əməkdaşlığın həyata keçirilməsi də ölkəmizin müdafiə qüdrətinin artmasına xidmət edir.

Son illər ərzində ölkəmizin yürütdüyü milli strategiya respublikamızın müstəqilliyinin, suverenliyinin qorunması, ərazi bütövlüyünün bərpa edilməsi, müdafiə qüdrətinin artırılması və bütün ərazilərimizdə Konstitusiya quruluşumuzun təmin olunmasına xidmət etmişdir. Təməli Ulu Öndər tərəfindən qoyulmuş bu işlər Müzəffər Ali Baş Komandanımız tərəfindən yüksələn templə, yeni məzmun əlavə edilməklə, zamanın reallıqları, çağırışları nəzərə alınmaqla inamla davam etdirilir.

Xarici hərbi təcavüzün qarşısının alınması, Ermənistanın işğalçılıq siyasətinin nəticəsi olan zəbt edilmiş torpaqlarımızın azad edilməsi, təhdidlərin qətiyyətlə dəf edilməsi və adekvat cavabların görülməsi üçün ordumuzun döyüş hazırlığının yüksək səviyyədə saxlanılması da daima dövlətimizin milli strategiyasının prioritet istiqaməti olaraq qalır.

Dövlət quruculuğunun bütün sahələrində olduğu kimi, ordu quruculuğu sahəsində də müasir və modern Azərbaycan Ordusunun yaradılması ilə bağlı Ümummilli Lider Heydər Əliyevin siyasi kursu uğurla davam etdirilir. Bu gün ordumuz döyüş və mənəvi-psixoloji hazırlıq sahələrində böyük uğurlar əldə edərək gündən-günə daha da güclənir və qüdrətlənir. Hər bir ordunun qüdrəti onun döyüş qabiliyyəti ilə mənəvi gücünün vəhdətində reallaşır. Orduya dövlətin təhlükəsizliyinin, ərazi bütövlüyünün və müstəqilliyinin qarantı kimi baxan hər bir Azərbaycan vətəndaşı bu gün öz qalib ordusu ilə, sözün əsl mənasında, fəxr edir.

Bu gün Azərbaycan cəmiyyətində, eləcə də orduda Ümummilli Lider Heydər Əliyev tərəfindən hazırlanmış və elmi-nəzəri prinsipləri zamanın sınağından çıxmış mükəmməl hərbi vətənpərvərlik konsepsiyası mövcuddur. İstər sülh, istərsə də müharibə dövründə hərbi qulluqçularda Vətənə, xalqa, dövlətçiliyə sədaqət və məhəbbət hisslərinin möhkəmləndirilməsi, onların ümumdövlət mənafeləri ətrafında səfərbər edilməsi bu istiqamətdə aparılan fəaliyyətin əsas məqsədləridir.

Əvvəlki illərdə olduğu kimi, yenə də mütəmadi olaraq hərbi xərclərimiz hər il artırılır, hərbçilərin sosial məsələlərinin həlli daim diqqət mərkəzində saxlanılır. Hazırda Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin Ulu Öndərin siyasətinin inkişaf etdirilməsi ilə bağlı yorulmaz fəaliyyəti sayəsində Azərbaycan Ordusu peşəkar, hazırlıqlı, vətənpərvər zabit kadrları ilə təmin edilir, maddi-texniki bazası günü-gündən daha da möhkəmləndirilir. Beynəlxalq hərbi əməkdaşlıq durmadan inkişaf edir, yeni müqavilələr imzalanır, ordumuz üçün müasir hərbi texnika, silah-sursatlar alınması prosesi uğurla davam edir.

Ulu Öndərin rəhbərliyi ilə görülən işlərin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfində inamla yeni məzmunda, zamanın tələbləri nəzərə alınmaqla yüksələn templə davam etdirilməsi Azərbaycanın dayanaqlı inkişafını, parlaq gələcəyini, suverenliyimizin və ərazi bütövlüyümüzün tam bərpasını təmin etmişdir. Əgər müasir Azərbaycan Ordusunun inkişaf təməlinin qoyulması, formalaşması Dahi Lider Heydər Əliyevin adı ilə bağlıdırsa, güclü təməllər üzərində qurulan ordu quruculuğu prosesini uğurla davam etdirərək ölkəmizi və ordumuzu qalib, Zəfər qazanmış, haqq-ədaləti bərpa etmiş dövlət-ordu səviyyəsinə yüksəltmək isə Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin adı ilə bağlıdır.

Ümummilli Lider Heydər Əliyevin və Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə yürüdülən milli strategiya sayəsində ölkəmizdə həyata keçirilən ordu quruculuğu prosesi, uğurlu islahatlar, ordumuzun həyata keçirdiyi döyüş əməliyyatları sonda şanlı Zəfərimizi, ölkəmizin suverenliyinin və ərazi bütövlüyünün tam bərpasını təmin etdi. Bütün bunlar isə son 30 ildə ölkəmizin inkişaf, çiçəklənmə, qüdrətlənmə tarixi, həm də müasir tariximizin ən parlaq reallığıdır.

**Baş leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu",**
**İsa İSMAYILOV**
**hərbi jurnalist**

## Azərbaycan-Çin hərbi mütəxəssisləri arasında işçi görüşləri keçirilib





Çin Xalq Respublikasında Azərbaycan və Çin hərbi mütəxəssisləri arasında Xüsusi Təyinatlı Qüvvələr və maddi-texniki təminat sahələrində işçi görüşləri keçirilib.

İşçi görüşlərində qoşunlarda maddi-texniki təminatın effektiv təşkili ilə bağlı perspektiv məsələlər müzakirə olunub, hər iki ölkənin xüsusi təyinatlılarının peşəkarlığının daha da artırılmasına dair ətraflı fikir mübadiləsi aparılıb. Tərəflər, həmçinin qarşılıqlı təcrübə mübadiləsi və maraq doğuran bir sıra digər məsələlərdən danışıblar.

Tədbir çərçivəsində Azərbaycan nümayəndə heyəti Çinin Çendu və Çonçin şəhərlərindəki hərbi baza və mərkəzi anbarı ziyarət edib.

**"Azərbaycan Ordusu"**

## Komando bölmələrinin döyüş hazırlığı yüksək səviyyədə saxlanılır



2024-cü ilin hazırlıq planına əsasən, komando bölmələri ilə taktiki-xüsusi təlim keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, təlimin ssenarisinə uyğun olaraq, şərti düşmən mövqelərinə qəfil hücum və mövqelərin tutulması üzrə tapşırıqlar yerinə yetirilib.

Ələ keçiriləcək mövqelərin əraziləri taktiki və vizual olaraq qiymətləndirilib, daha sonra minaatanların atəş dəstəyi ilə qəfil hücum icra edilib.

Keçirilən taktiki-xüsusi təlimdə yüksək peşəkarlıq nümayiş etdirən komandolar atəş tapşırıqlarını dəqiqliklə yerinə yetiriblər.

## “Ordu” klubu növbəti dəfə qələbə qazanıb

Basketbol Liqasında "Ordu" klubu növbəti dəfə qələbə qazanıb.
Dekabrın 11-də "Sərhədçi" İdman Olimpiya Mərkəzində davam edən yarışlar çərçivəsində "Ordu" klubu "Sumqayıt" komandası ilə görüşüb. Qarşılaşmada "Ordu" klubu 34 xal fərqlə üstünlük qazanıb.
Yekun nəticələrə görə "Ordu" klubu 115:81 xal hesabı ilə qalib gəlib.

**"Azərbaycan Ordusu"**



## HHQ-də voleybol üzrə birincilik keçirilib





2024-cü ilin hazırlıq planına əsasən, Hərbi Hava Qüvvələrində (HHQ) hərbi qulluqçular arasında voleybol birinciliyi keçirilib.
Müdafiə Nazirliyi xəbər verir ki, birinciliyin açılış və bağlanış mərasimlərində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin azadlığı, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.
Çıxış edənlər qalib komandaları təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb, hərbi qulluqçuların fiziki hazırlığının yüksək səviyyədə saxlanılmasında bu cür idman yarışlarının əhəmiyyətini xüsusi vurğulayıblar.
Bildirilib ki, HHQ-nin müxtəlif hərbi hissələrini təmsil edən komandalar birincilikdə inamla mübarizə aparıblar.
Maraqlı keçən yarışlar nəticəsində qalib komandalar mükafatlandırılıb.

# Xəbərlər: hadisələr, faktlar

### Ukrayna Danimarkadan F-16 qırıcılarının ikinci partiyasını alıb



Danimarka F-16 qırıcı təyyarələrinin ikinci partiyasını Ukraynaya göndərib.
Ukrayna Prezidenti Volodimir Zelenski bu barədə özünün sosial media hesabında yazıb.
"Danimarkanın Ukrayna üçün göndərdiyi F-16 qırıcılarının ikinci partiyası artıq ölkədədir", - deyə dövlət başçısı bildirib.
İkinci partiyada Kiyevə tədarük olunan qırıcıların sayı barədə məlumat verilmir.
Qeyd edək ki, noyabr ayında Danimarkanın Baş naziri Mette Frederiksen altı ədəd F-16 qırıcısının Ukraynaya təhvil verildiyini və daha 13 təyyarənin tədarükünün planlaşdırıldığını elan edib.

### Qolan təpələrində Qazaxıstan sülhməramlıları: vəziyyət gərgin, lakin sabitdir



Qazaxıstan sülhməramlılarının xidmət etdiyi Qolan təpələrindəki (UNDOF) BMT missiyasının məsuliyyət zonasında vəziyyət gərgin olsa da, sabit kimi qiymətləndirilir.
Qazaxıstan Müdafiə Nazirliyinin mətbuat xidməti xəbər verir ki, missiyanın şəxsi heyəti funksiyaları mandata uyğun olaraq yerinə yetirir.
"BMT-nin Müşahidəçi Qüvvəsinin səlahiyyətli rəsmiləri həm Suriya, həm də İsrail tərəflərinin nümayəndələri ilə daimi əlaqə saxlayırlar. Sülhməramlıların təhlükəsizliyini təmin etmək üçün lazımi tədbirlər görülür", - deyə məlumatda bildirilir.
Qeyd olunur ki, Qazaxıstan Müdafiə Nazirliyi vəziyyətin inkişafını izləyir və Qolan təpələrində yerləşən Qazaxıstan hərbi qulluqçuları ilə daimi əlaqə saxlayır. Ehtiyac yaranarsa, missiya komandanlığının təklifi ilə missiyanın təxliyəsi məsələsinə BMT rəhbərliyi tərəfindən baxılacaq.

### İsveç yeni qırıcı təyyarənin hazırlanmasını sürətləndirir



Riksdaq (İsveç Parlamenti - red.) "Jas Gripen"i əvəz edəcək yeni qırıcının yaradılması ilə bağlı qərarların qəbulu prosesini sürətləndirməyi planlaşdırır.
Bütün partiyalar bu təşəbbüsü yekdilliklə dəstəkləyib, İsveç texnologiyalarının və milli aviasiya sənayesinin, xüsusilə "Saab" şirkətinin saxlanılmasının vacibliyini vurğulayıblar. İkinci Dünya müharibəsindən sonra ən gərgin olan mürəkkəb geosiyasi vəziyyət təcili tədbirlərin görülməsini tələb edir.
Yeni qırıcının yaradılması ilə bağlı üç yanaşma nəzərdən keçirilir. Birincisi, tamamilə İsveç istehsalıdır. İkincisi digər ölkələrlə birgə layihədir. Üçüncü, hazır xarici təyyarənin alınmasıdır. Riksdaq layihəyə ölkədaxili nəzarəti saxlamaq və İsveç aviasiya sənayesində iş yerlərini təmin etmək üçün ilk iki varianta üstünlük verir.
Yeni qırıcının seçilməsi üçün Riksdaqdakı bütün partiyaların nümayəndələrinin iştirakı ilə işçi qrupu yaradılacaq. Yeni qırıcının ilk uçuşu 2040-cı illərdə gözlənilir. Layihənin dəyəri ən azı 100 milyard kron (11 milyard dollar) qiymətləndirilir.
2025-2030-cu illər üçün yeni müdafiə planı çərçivəsində İsveç silahlı qüvvələrinin sayı 88 min nəfərdən 115 min nəfərə artırılacaq. Bundan əlavə, əhəmiyyətli investisiyalar avadanlığın modernləşdirilməsinə, döyüş sursatı ehtiyatlarının artırılmasına, hava hücumundan müdafiə sistemlərinin, pilotsuz uçuş aparatlarının və kosmik texnologiyaların inkişafına yönəldiləcək. Bu tədbirlər İsveçin müdafiə qabiliyyətini gücləndirmək və onu yeni təhlükəsizlik sahəsində çağırışlara uyğunlaşdırmaq üçün nəzərdə tutulub.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman

### Azərbaycan karateçiləri İtaliyada medal qazanıblar





Azərbaycan karateçiləri İtaliyanın Venesiya şəhərində Dünya Karate Federasiyasının (WKF) təşkil etdiyi yeniyetmə və gənclər arasında "2024/Karate - 1 Liqa"sında uğurla çıxış ediblər.
Yarışda ölkəmizi 12-13 yaş kateqoriyasında Elməddin Səlimli (-45 kiloqram) və 14-15 yaşlılarda isə Vüsal Qənbərov (-52 kiloqram) təmsil ediblər.
E.Səlimli gümüş, V.Qənbərov isə bürünc medala sahib çıxıblar.

### İlk dəfə kata üzrə Azərbaycan çempionatı və birinciliyi keçiriləcək



Böyüklər və gənclər arasında ilk dəfə kata üzrə ölkə çempionatı və birinciliyi keçiriləcək.
Böyüklərin yarışında 2009-cu il və ondan aşağı, gənclərin mübarizəsində isə 2005-2010-cu il təvəllüdlü idmançılar iştirak edəcəklər.
Dekabrın 23-də start götürəcək yarışdan öncə məşqçilər və cüdoçular üçün kata üzrə seminar təşkil olunacaq.

### Lionel Messi Azərbaycana təşəkkür edib



"Azərbaycan mədəniyyəti və insanları ilə tanış oldum. Buna görə çox xoşbəxtəm".
Bu sözləri Argentina millisinin və ABŞ-ın "İnter Mayami" klubunun futbolçusu Lionel Messi Bakı Kristal Zalında təşkil olunan tədbirdə deyib.
Futbol əfsanəsi ilk dəfədir Azərbaycanda olduğunu qeyd edib: "Bu cür isti qarşılanmaya görə Azərbaycana təşəkkür edirəm".
Qeyd edək ki, tədbirdə dünya ulduzları Luis Suarez, Serxio Buskets və Xordi Alba da iştirak ediblər.

### Salah noyabr ayının ən yaxşısı seçilib



İngiltərənin "Liverpul" komandasının futbolçusu Məhəmməd Salah Premyer Liqada noyabr ayının ən yaxşı futbolçusu seçilib.
Misirli hücumçu Peşəkar Futbolçular Assosiasiyasının azarkeşlər arasında keçirdiyi sorğuya əsasən birinci olub.
M.Salah siyahıda Moises Kaysedo ("Çelsi"), Mateus Kunya, Joao Qomeş (hər ikisi "Vulverhempton"), Ceyms Maddison ("Tottenhem") və Joao Pedronu ("Brayton") qabaqlayıb.
Qeyd edək ki, Məhəmməd Salah noyabr ayında Premyer Liqada keçirdiyi 3 oyunda 4 qol və 1 məhsuldar ötürmə ilə yadda qalıb.

**AZƏRTAC-ın materialları əsasında**

**Məsul katib**
mayor Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

“Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
baş leytenant Oruc MUSTAFAYEV

Lisenziya № 361
Sifariş № 781
Nüsxə 4650